**Qəlbinin hərarəti ilə ətrafa nur çiləyən insan**

Akif **MƏMMƏDOV,**

***"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının şöbə redaktoru***

-




**"Ulu Tanrının yaratdığı hər bir insan övladı dünyaya ona görə gəlir ki, qəlbinin hərarəti ilə ətrafa nur çiləsin, konkret desək, kimsəyə əl tutsun, yaxşılıq etsin, bəd əməllərə qurşanan yoldaşlara düzgün yol göstərsin".** Bu fikirlər haqqında yazmaq istədiyim, xatirəsi qəlbimizdə həmişə əziz olan **Bahəddin Yunusovundur**. Azərbaycanın görkəmli ziyalıların dan biri haqqında 10 il əvvəl yazdığı məqalədən götürmüşəm. Elə özü də belə idi. İşinə ciddi və son dərəcə məsuliyyətlə yanaşan, özünə qarşı tələbkar, ətrafındakılara münasibətdə qayğıkeş bir insan. Mən onunla yaxından tanış olanda qarışıq dövr idi - 1991-ci il. Keçmişi haqqında az-çox məlumatım var idi. Bilirdim ki, hər kəsə şərəf gətirə biləcək nümunəvi bir ömür yolu keçmişdir. 10 may 1936-cı ildə Masallı rayonunun Ərkivan kəndində anadan olmuşdu. Rayonlarındakı Bədirli 7 illik və Masallı 1 saylı orta məktəblərini bitirmiş, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinə (indi BDU) daxil olmuşdu. 1960-cı ildə gənc jurnalist kimi "Azərbaycan müəllimi" qəzetinə gəlmiş və burada xüsusi müxbir, şöbə müdiri, məsul katib və baş redaktor müavini vəzifələrində çalışmışd. Qabaqcıl işçi kimi 1973-cü ildə Moskvadakı Ali Partiya Məktəbinə göndərilmiş, 1975-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək Azərbaycanda bir çox rəhbər vəzifələrdə (Əli Bayramlıda çıxan "İşıq" qəzetinin baş redaktoru, Qaradağ Rayon Partiya Komitəsində təlimatçı, "Kənd həyat" jurnalında məsul katib, "Kənd təsərrüfatı elmi xəbərləri"nin baş redaktoru) işləmişdi. 1985-ci ildə doğma təhsil sistemi onu yenidən özünə cəlb etmişdi. "Azərbaycan məktəbi" jurnalının baş redaktor müavini təyin edilmişdi və ordan da Təhsil Nazirliyinin "Ana sözü" jurnalına baş redaktor işinə göndərilmişdi. Vaxtilə

"Azərbaycan məktəbi"nə əlavə kimi çıxan "Azərbaycan dili və ədəbiyyat tədrisi" məcmuəsinin əsasında fəaliyyət göstərəcək "Ana sözü" (sonra əvvəlki adı qaytarıldı) indi müstəqil aylıq jurnal kimi çıxmalı idi.

Mən gələndə jurnalın redaksiyası yenicə formalaşırdı, cəmi bir-iki sayı çıxmışdı. Bahəddin müəllim yaradıcı işçiləri şəxsən özü ciddi yoxladıqdan sonra işə qəbul edirdi, onu tanıyanlar bilirdi ki, xahiş - minnət, tapşırıq burda rol oynamır. Uzunmüddətli həyat təcrübəsi adamları tanımaqda ona kömək edirdi. Bunun nəticəsi idi ki, işgüzar və səmimi bir kollektiv formalaşdıra bildi. O, dilə, sözə, təhsilə müqəddəs bir varlıq kimi baxırdı. Bizi də belə öyrətmişdi. 90-cı illərin bütün ağırlıqlarına, təzyiqlərə, maliyyə imkansızlıqlarına baxmayaraq, kollektiv dağılmadı, redaksiya yaşadı və mübarizə apardı. O vaxt çapdan çıxan nömrələrin birində B.Yunusov ürəkağrısı ilə yazırdı: **"Son illərin, ayların hadisələri çoxlarının əlini işdən soyudub: Bunlar faktdır və psixoloji ləngimələrdir, lakin müəllimin uzun müddət donub - buzlaşmağa haqqı yoxdur: o, humanist vəzifəsini öz fəaliyyət və əzmkarlığı ilə davam etdirmək iqtidarını itirməli deyil"** ("Ana sözü", dekabr, 1990). Bəlkə, əlinə jurnal alıb, bir dəfə də olsun, sinfə girməmişdi. Amma bütün mənəviyyatı ilə müəllim idi. Onun 90-cı illərin əvvəllərində dərc olunan məqalələrini oxuyanlar bunun bir daha şahidi olarlar - vətəndaş narahatlığı, cəmiyyətdə baş verənlərin təhsil neqativ təsiri, dilin və ədəbiyyatın tədrisindəki çatışmazlıqlar, təhsil sistemində özünü göstərən ruh düşkünlüyü və bütün bu labirintdə çıxış yollarını aramaq. Bir dəfə nazirliyin məmurlarından biri ona demişdi ki, biz jurnalı maliyyələşdirə bilmirik, redaksiyanı bağlayın, çıxın gedin. Ya da siz də jurnalın üz qabığında oxucunu cəlb edən qadın şəkilləri verin, qoy jurnal çox satılsın. Bu sözlər onu dəhşətə gətirmişdi, özünə yer tapa bilmirdi. Bəlkə, həmin ovqatın təsiri idi ki, yazılarının birində belələrini qəzəblə ittiham edirdi: **"Dinimizi-imanımızı yandırıb yaxa-yaxa, itaətdə buluna - buluna itirdiyimiz çox, qazancımız isə mənəvi kasıblıqdan ibarət olub"**. Təbii ki, məmurun dediyi yolla getmədik, jurnalın adındakı müqəddəsliyi və qulluq etdiyimiz amalın ucalığını qoruduq. Müxtəlif təşkilatlar, qabaqcıl müəllimlər, məktəb, maarif təəssübkeşləri tərəfindən göstərilən maliyyə yardımları sayəsində jurnalı saxladıq. Təbii ki, bu işdə Bahəddin müəllimin şəxsi keyfiyyətləri, nüfuzu, cəmiyyətdəki hörməti xüsusi rol oynadı. O vaxt müəllimlərə

müraciətlə yazdığı məqalələrinin birində onun narahat qəlbinin döyüntüləri açıq-aydın hiss edilir: **“Əziz müəllimlər! ..Biz sizin köməyinizlə müstəqillik yolunda kövrək addımlarını atan dövlətimizin ən mühüm atributu olan Azərbaycan dilini və millətimizin ən zəngin xəzinəsi sayılan ədəbiyyatı öyrənməli, qorumalı və yaşatmalıyıq. Bütün bunlar isə tədrislə sıx bağlı olan məsələlərdir”**.

Bahəddin müəllimin xarakterində iki keyfiyyət özünü daha qabarıq göstərirdi: **ciddi rəhbər işçi məsuliyyəti və vətənpərvər jurnalist səriştəsi**. Redaksiyada işgüzar mühit yaratmışdı. Həftədə bir dəfə yanında jurnalistlərin “letuçka” dedikləri qısamüddətli iclasa yığışardıq. Uzun-uzadı söhbətlərdən xoşlanmazdı, “Konkret təkliflərinizi verin”,- deyərdi. Sonralar bu təkliflər saf-çürük edilər və münasibləri jurnal səhifələrində tətbiq olunardı. O vaxt jurnal ayda bir dəfə çıxırdı. Aylarla maaş almayan kiçik bir kollektivlə bu işin öhdəsindən gəlmək üçün, əlbəttə, ciddi idarəçilik bacarığı lazım idi. Zaman-zaman illərin sınağında cilalanmış, itilənmiş qələmi və az qala vərdiş halna keçən jurnalistlik, redaktorluq səriştəsi var idi. İşimizdə sistem elə qurulmuşdu ki, bir məqalə araya-ərsəyə gələnə qədər 4-5 adamın əlindən keçirdi (müxbir, - şöbə redaktoru - baş redaktor müavini - məsul katib və s.). Amma son variant Bahəddin müəllimin stolunun, üstünə qoyulanda hamımızı təəccübləndirən səriştə ilə barmağını səhvlərin üstünə qoyardı. Bütün məsələlərə, xüsusilə redaksiya əməkdaşlarının yazılarına çox ciddi yanaşardı. Dəfələrlə yazılarımı tənqid etmiş, müvafiq düzəlişlər vermişdi. Jurnala gələnə qədər mən daha çox elmi məqalələr yazmışdım. Ancaq publisist, elmi-publisist yazılar yazmağı burada -.Bahəddin müəllimdən öyrəndim. Tənqid etməyi də, həvəsləndirməyi də bacarırdı. Bir məqaləm haqqında dediyi xoş sözlər indi də qulaqlarımdadır: **“Torpağın altından baş qaldıran yaz cücərtisi necə gözəl təsir bağışlayırsa, sənin bu məqaləni oxuyanda da o cür hisslər keçirdim”**.

**Söz, dil** Bahəddin müəllim üçün müqəddəs bir qala idi - bu qalanı qurmaq və yaşatmağı o, özünün müqəddəs əsgəri borcu bilirdi. Cəmiyyətdə öz yerini bildiyi kimi, yazılarında da sözünün yerini bilən adam idi. Juralda gedən bütün yazılara da bu meyarla yanaşırdı. Ana dilinə, sözə laqeyd yanaşmaq onun aləmində elə Vətənə, torpağa laqeyd yanaşmaq qədər qəbahət idi. Hələ 1991-ci ildə yazırdı: **“Bugünkü bədbəxtliklərimizin, uçuruma yuvarlanmağımızın, böhran girdabına düçar**

**olmağımızın bir səbəbi də uzun illər ana dilimizin öyrənilməsini başlı-başına buraxmağımız olmayıbmı?"**. Onda hələ "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan dili gününün təsis edilməsi haqqında" Prezident fərmanları verilməmişdi. Hələ "Dövlət dili haqqında qanun" da qəbul edilməmişdi. Bunlar hələ sonra olacaq, Bahəddin müəllim kimi ziyalıların fəaliyyətinə, arzularına qol-qanad verəcəkdi. Yadımdadır, redaksiyada dəfələrlə dilin və ədəbiyyatın tədrisi problemləri ilə bağlı "dəyirmi masa" təşkil edərdik. Rusdilli məktəblərdə Azərbaycan dilinin tədrisi, daha doğrusu, yanıtmaz tədrisi ilə bağlı keçirilən "dəyirmi masa"lardan birində ürəkağrısı ilə dediyi sözlər sanki həyəcan siqnalı idi: **"Papağımızı qabağımıza qoyub əməlli-başlı fikirləşməliyik ki, axı nə üçün hər cür tədbir görülməsinə, dərs saatlarının artırılmasına, əyani və texniki vəsaitlərin bolluğuna baxmayaraq, dilimizi digər millətlərin uşaqlarına heç orta səviyyədə belə öyrədə bilmirik"**.

Vətəninə, millətinə, dilinə və dininə son dərəcə bağlı adam idi. Bu əqidə, məslək ona ailədən, doğma Ərkivan (Masallı) kəndində böyüdüyü mühitdən keçmişdi. Yaşı 60-ı keçsə də, atasını tez-tez xatırlayırdı, onun nəsihətlərini ibrətamiz hərəkətlərini yada salırdı. Hardasa yazılarının birində oxumuşam ki, Moskvada Ali Partiya Məktəbində oxuyanda müəllimlərindən biri ondan haradan gəldiyini, harada anadan olduğunu soruşur. "Doğma kəndimin adını çəkdim və bundan sonsuz qürur hissi keçirdim", - deyə Bahəddin müəllim yazır. Yerlibazlığa, tərəfkeşliyə düşmən idi. O elə bütün Azərbaycanı da, azərbaycanlıları da Ərkivan və ərkivanlılar qədər sevirdi. Keçən əsrin axırıncı onilliyində Azərbaycanın başının üstünü qara buludlar alanda, respublika parçalanmaq, məhv olmaq təhlükəsi ilə üzləşəndə passiv seyrçi kimi qalmır, qələminə güc verirdi: **"Bəli, bu gün müstəqillik, suverenlik uğrunda ölüm-dirim mübarizəsi gedir. Qanımıza qəltan oluruq, lakin yolumuzdan dönmürük, haqq səsimizi batırmaq istəyirlər, dədə-baba torpaqlarımıza canavar kimi diş qıcıdırlar. ..Gəlin unutmayaq ki, müstəqilik, suverenlik yürüşündə geri çəkilsək, tarix bizə lənət yağdıracaq"** ("Ana sözü", 1991, № 4-6).

İndi amansız ölüm onu bizdən üçillik məsafədə saxlayır. Düz üç il əvvəl - mayın 2-də redaksiyaya edilən zəng əməkdaşlarımızı və onu tanıyanları sarsıtdı. Buna heç kəs inanmaq istəmirdi. Axı elə bircə gün əvvəl bizimlə danışmış, görülən işlərlə

maraqlanmış və göstərişlərini vermişdi. Ondan xəbərsiz ad gününə hazırlaşırdıq, bilsəydi, imkan verməzdi. Mayın 10-da 67 yaşı tamam olmalı idi. İndi 70 yaşını qeyd etdik, yenə ondan xəbərsiz...

***"Azərbaycan dili və ədəbiyyatı tədrisi", 2006, №2***